

Şək. 1. Çul. XIX əsr. Şirvan

# Rusiya Etnoqrafiya Muzeyində və Dövlət Ermitajında qorunan Azərbaycan xalçaları

**Xədicə Əsədova**
*Azərbaycan Milli İncəsənət Muzeyinin elmi işlər üzrə direktor müavini*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*
***e-mail:** xadijaasadova@yahoo.com*

Xalça türk xalqlarının mədəniyyətində keçmişdən günümüzədək ən qədim məlumatları özündə yaşadan salnamədir. O bir yerdən digərinə asan daşınır, məişətdə istifadə edilir, salonları bəzəyir, kübarlar üçün dəyərli hədiyyə hesab olunur.

Bu gün bütün dünyada populyar olan Azərbaycan xalçaları "Devidin" (Kopenhagen) və s. bu kimi bir çox özəl kolleksiyalarda, "Viktoriya&Albert" (London), "Tekstil" (Vaşinqton), "LACMA" (Los-Anceles), Parisin Dekorativ Sənət Muzeyi, Türk və İslam Əsərləri Muzeyi (İstanbul), "Fərş" (Tehran), "Perqamon" (Berlin), Rusiyanın Etnoqrafiya Muzeyi, Dövlət Ermitajı (Sankt-Peterburq), Şərq Xalqlarının İncəsənəti Dövlət Muzeyi (Moskva) və s. kimi məşhur muzeylərdə qorunur, nümayiş etdirilir. Azərbaycanda ilk dəfə bu haqda akademik Rasim Əfəndiyev hələ sovet dönəmində məlumat vermişdir. Lakin o zamanın siyasi baxımdan mövcud məhdudiyyətləri bu növ araşdırmanın daha təməlli aparılmasına, yəni əşyaların daşınma səbəbi və yerlərdə olunan atribusiyaları kimi məsələlərin dəqiq öyrənilməsinə imkan vermirdi.

Məqalədə haqqında bəhs olunan xalçalar Rusiya Etnoqrafiya Muzeyinin (yarandığı dövrdə"Rus muzeyi" adlanırdı) kolleksiyasına aiddir. Bu kolleksiyada Qafqazda yaşayan 45 xalqın mədəniyyət tarixini əks etdirən eksponatlar mühafizə edilir. Bu əşyalar Qafqaz xalqlarının mədəniyyətini, sənət tarixini, bu xalqlar arasında olan tarixi əlaqələri, etnoqrafiya məsələlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Kolleksiyadakı xalçaların uzun illər öncə Azərbaycandan çıxarılmasının müxtəlif səbəbləri olmuşdur. Əksər hallarda bu xalçalar satın alınmışlar. Məsələn, XX əsrin əvvəllərindən – 1903, 1904, 1907, 1908, 1915, 1916, 1926 və daha sonrakı illərdə (XX əsrin 70-ci illərinə qədər) Sankt-Peterburqun Etnoqrafiya Muzeyinin əməkdaşları - A.A.Miller, N.N.Şavrov, K.A.İnostrantsev, K.Z.Kavtaradze, E.Q.Torçinskaya, E.N.Studenetskaya və digərləri tərəfindən Şuşa, Qazax, Naxçıvan, Quba, Bakı, Gədəbəy, Cəbrayıl, Şamaxı və başqa bölgələrə ekspedisiyalar təşkil edilmişdir. Bu bölgələrdə yaşayan əhalidən məşğul olduğu sənət növləri haqqında məlumatlar toplanılmış, onların əl işləri satın alınmışdır (1, s.96). Qeydlərdə göstərilir ki, xalça azərbaycanlıların məişətinin ayrılmaz hissəsidir. Bütün



Şək. 2. Vərni. XIX əsr. Qarabağ


Şək. 3.


Şək. 4.

coğrafi ərazi boyu xalçalar toxunur, onların gündəlik həyatlarında xurcun, məfrəş, çuval çox gərəklidir...(1, s.97). Əsasən XVIII əsrin ikinci yarısı - XX əsrin 70-ci illərində toxunan bu nümunələrin arasında ayrı-ayrı qruplara aid klassik xalçalarla yanaşı, "Namazlıq"lar, həmçinin "Azərxalça" Elmi-İstehsalat Birliyində toxunan xalçalar da yer almışdır. Ümumilikdə isə Muzeyin Azərbaycan bölməsində 1682 ədəd əşya vardır. Bu, silah, metal, saxsı, zərgərlik, geyim, ipək, musiqi alətləri və digər 93 növ eksponatı əhatə edən zəngin kolleksiyadır. Xalça kolleksiyasına 1904-cü ildə K.A.İnostrantsev, 1908-1909-cu illərdə tanınmış etnoqraf A.A.Miller tərəfindən Quba və Şuşa qəzalarından toplanan xalçalar, elə həmin illərdə bərpaçı-rəssam K.Z.Kavtaradze tərəfindən Q.Tebenkovun özəl kolleksiyasından alınan xalçalar daxildir. Bu ənənə 1960-cı ildə də davam etdirilmiş və İnqilab Muzeyindən inqilaba qədərki dövrə aid xalçalar kolleksiyaya daxil edilmişdir.

Təəssüflə qeyd etmək lazımdır ki, bu kolleksiyanı toplayanlar üçün xalçanın və yaxud toxuculuq alətlərinin kimin evində istifadə olunması faktı əsas meyar kimi qəbul edilmişdir. Belə ki, üfüqi hananın köməkçi hissəsi olan "bic" adlanan detal, "cəhrə" haqqında belə şərh vardır - "erməni adını daşıyır, lakin tatarlarda istifadə edilir". Qarabağda - Şuşada toxunan xalı dəstləri, Qazaxda toxunan palaz, xurcun, Yelizavetpolda (Gəncədə) toxunan duz torbası (1, s.124,126) və s. indi də ermənilərə məxsus əşyalar kimi inventar kitablarında qeyd edilir. Bu faktı söyləmək kifayətdir ki, əşyaları 1903-cü ildə Qazax qəzasından satın alan Ter-Avetisyan olmuşdur.

Bundan əlavə, Azərbaycanda müxtəlif xalqlar və etnik qruplar da vardır ki, onların mədəniyyəti, sənətkarlığı yerli xalqla çoxdan bəri qaynayıb-qarışmışdır. Etnik mənsubiyyətlərindən asılı olmayaraq, bu insanlar toxuduqları xalçalar üzərində türk incəsənətinin qaynaqlarına istinad edən naxış və ornamentləri toxuyurlar. Müəyyən regionda əsrlər boyu toxunmuş, dərin tarixi köklərə malik klassik çeşnili xalça azlıq təşkil edən etnik xalqlar tərəfindən istifadə edildiyi üçün, xalçaların türklərə mənsubiyyəti unudulmuş, onların ekspedisiya üzvləri tərəfindən kürd, tat, ləzgi, talışlara aid olduğu göstərilmişdir. Şübhəsiz ki, bu cür nöqsanlar gələcəkdə region adı ilə, yəni "Trans-Kaukasus", "Qafqaz"(2, s.15)



Şək. 5.



Şək. 6.

adlandırılmasına səbəb olmuşlar. Bu zaman naxışların, motivlərin qaynaqlarla bağlı daşıdığı semantik məna, xalçaların ümumi kompozisiya quruluşu, rəngləri, toxuma texnikası isbatlayıcı məqam kimi istifadə edilir.

Naxışlar xalça üzərində tarixin müxtəlif dövrlərində fərqli üslubda, bədii quruluşda təzahür etmişlər. Onlar estetik baxımdan getdikcə daha da təkmilləşmiş fərqli bədii quruluş qazansalar da, ideya-məzmun baxımından sabit qalmışlar. XVI-XVII əsrdə yaşamış Azərbaycanın tanınmış şairi və rəssamı Sadiq bəy Əfşar yaratdığı 17 qısa bölmədən ibarət olan "Qanun-üs-süvər" ("Təsvirlər qanunu") əsərində müxtəlif sənət növlərindən bəhs edir, naxışlarda bitkinliyin və məzmunun böyük önəm kəsb etdiyini yazır (3, s.26). Qanuniləşmiş – "İslimi", "Xətayi", "Əbr", "Vağ", "Nilufər", "Firəngi sevən", "Bəndi-rumi" kimi 7 əsas naxışın, həmçinin simurq, əjdər (əjdaha), şir, öküz obrazlarının adını çəkir. Rusiyanın Etnoqrafiya Muzeyində qorunan at çulu və vərni kimi xovsuz nümunələr üzərində (şək. 1, 2) kökü çox qədimlərə gedən ağac, quş, ceyran və əjdaha motivlərini görürük; bunlar məkanından asılı olmayaraq, rəngi, bədii quruluşu və naxışlarının məzmunu baxımından türk bədii ənənələrini özündə yaşadır. Nəşr edilmiş kitabdakı rəsmdə vərni üzərində onun toxunduğu məkana sual qoyulmuşdur (2, s.186). Bu da Rusiya muzeylərində yol verilən qeyri-obyektivliyə daha bir misaldır. Duz torbası (şək. 3) üzərində gördüyümüz dörd çıxıntı işarəsi dörd qütb, dörd ünsür, vahid enerji mənbəyinin varlığı və ondan paylanan şüaların rəmzidir. Kolleksiya məlumatlarında xurcunun (şək. 4) tatlara məxsus olduğu göstərilir. Bu ərazidə yaşayan bütün etnik xalqlar yerli ənənəni, milli geyimi istifadə etdikləri, paylaşdıqları halda, onların məişətdə işlətdikləri əşyanın qeyri-türk mədəniyyətinin nümunəsi kimi adlandırılması yanlışdır. Yəni bu məmulat üzərində türk xalqlarına məxsus motivlər, "daraq" elementi bütün Azərbaycan ərazisində toxunan kilimlər üçün səciyyəvidir. Məhz bu səbəbdən də o varislik nümunəsi hesab edilə bilər.

3. Duz torbası.
XX əsrin əvvəlləri

4. Xurcun.
XX əsrin əvvəlləri
Şirvan

5. Xalça. "Malıbəyli".
Qarabağ. XIX əsr

6. Zili. XIX əsr. Bakı



Şək. 7.



Şək. 8.

Qarabağın "Malıbəyli" xalçası üzərində (şək. 5) gördüyümüz svastika nişanı hələ eradan əvvəlki dövrlərə aid saxsı qablar üzərində rast gəlinən qədim motivlərdəndir. Həndəsiləşmiş naxışların çoxluq təşkil etdiyi Azərbaycan xalçalarındakı bir çox elementlər "svastika" təsviri kimi təqdim olunur. "Svastika" kimi təqdim olunan "xaç" naxış elementi Azərbaycan, Zaqafqaziya, Ön Asiya, Çin, Hindistan və Qədim Misir simvolikasında da geniş yayılmışdır. Bu cür elementlərdən bir qisminin əsasını "xaçvari" naxışlar təşkil edir. Xalçalarda əsasən doldurucu element olan "svastika", bəzən əsas naxış kimi də çıxış edir. Quba qrupuna aid sumaxlarda, "Bilici" və s. kimi xovlu xalçalarda doldurucu element olan bu "svastika", Gəncə və Qazax-Borçalı qrupuna aid digər xalçalarda əsas naxış kimi təsvir olunurlar.

"Malıbəyli" xalçası üzərindəki "bulud" elementi çin-uyğur mədəniyyətinin təsiri nəticəsində xalça sənətimizə daxil olmuş, həmçinin Orta Asiyada, əsasən də Özbəkistanda istehsal edilən parçalar, Təbriz xalçaları, çini qablar üzərində geniş tətbiq olunmuşdur. Çox zərif toxunuşlu zili Bakı qrupuna aiddir (şək. 6). Bu xovsuz xalça üzərində mifik quşlar, ağac motivləri həndəsiləşmiş tərzdədir. "Həyat ağacı" - əbədi həyat, həyatın üç təbəqəsi – yeraltı, yaşadığımız və səmavi əbədi həyat kimi yozulur. Azərbaycanda ağac hər zaman müqəddəs sayılmışdır. Hətta ağaca bir canlı kimi inam vardır, ayrılıqda isə müəyyən növ ağaclarla bağlı pirlər mövcuddur. Ağacların dibinə qaynar su tökülməsi günah sayılır. Bəzi pirlərdə belə ağacın budaqlarına parça bağlanır, dilək tutulur. Quş motivi də müqəddəsdir, o yer ilə göyü birləşdirən ezoterik obraz kimi yozulur. O, insanın ruhunu göylərə ucaldan və əbədiyyətə qovuşduran müqəddəs varlıqdır. Ritmik şəkildə düzülmüş dördbucaqlı damalar, onların içərisindəki romblar Qarabağ zilisini (şək. 7) Bakı zilisindən tam fərqləndirir. Dördbucaq - əkin sahəsini, torpağı təmsil etdiyi halda, romb artımın, bərəkətin rəmzidir. Cənubi Azərbaycan ərazisindən tapılmış e.ə. V minilliyə aid saxsı qablar üzərində belə romb təsvirinə rast gəlinmişdir.

Qazaxda toxunan şəddə öz bədii quruluşu ilə fərqlidir. O ətraflardan "ziqzaq"larla dövrələnib (şək. 8). Bu növ şəddələr Cənubi Azərbaycanda da toxunur və onlar xalq arasında "qaraağac" adlanır (4, s.84). Bu cür adlanan şəddələr müqəddəs məkanlara, türbələrə və məzarlıqlara nəzir olaraq toxunurdu. Bu ənənə əsasən Cənubi Azərbaycanda daha çox yayılmışdır.



Şək. 9.

7. Zili. XIX əsrin sonları. Qarabağ

8. Şəddə. XIX əsr. Qazax

9. Kilim. XIX əsr. Qarabağ

10. Xalça "Qədim Gəncə". XIX əsr

Bakının çiyi palazını xatırladan bədii quruluşlu kilim Qarabağda da geniş yayılmışdır (şək. 9). Bu nümunə 1908-ci ildə A.A.Miller tərəfindən Qubadan alınsa da, onun toxunuşu Quba bölgəsi üçün xarakterik deyildir. Üzərində olan su, romb naxışları bu çeşninin qədimliyini, arxaikliyini bir daha sübut edir. Qoç buynuzunu xatırladan qarmaqlar türk xalqlarının xalçaçılıq sənətində geniş yayılmışdır. Bu motiv saxsı qablar üzərində cızma və döymə üsulu ilə icra edilib, tarixin sonrakı mərhələlərində xalçalar üzərində də toxunmağa başlamışdır. Bu haqda tədqiqatçı R.Əfəndiyev "Azərbaycan el sənəti" kitabında maraqlı təhlillər vermişdir (5, s.70). Müəllif qoç buynuzu motivinin güc, qüvvət simvolu olduğunu təsdiq edir. Bu elementdən kilimlərin, zililərin, şəddələrin, sumaxların, cecimlərin, xovlu xalçaların bədii kompozisiyasında romb, üçbucaq, dördbucaq, pilləli, çoxbucaqlı elementlərin ətraflarında istifadə olunur.

Gəncədə toxunmuş "Qədim Gəncə" xalçası da öz diaqonal formalı zolaqları arasında həndəsiləşmiş "buta" motivləri ilə klassik xalçaçılıq nümunəsi kimi çıxış edir (şək. 10). Belə ki, buta – nişangah rəmzi, odun simvolu, müjdə, damla, badam, yarpaq kimi müxtəlif anlamlarda yozulur. Bu naxışların zərif koloritli, ritmik zolaqlarda düzülmüş naxışları onu digərlərindən fərqləndirir.

"Artsvaqorq" adı ilə ermənilərə məxsus nümunə kimi təqdim olunan, əslində isə tarixi "Çələbi" xalçası Avropada çox zaman "Qartal-Qazax" da adlanır (şək. 11). Bu xalça iki me-



Şək. 10.



Şək. 11.



dalyonludur və bu medalyonlardan qollar şəklində ətrafa pöhrələr uzanır. XIX əsrdə toxunmuş süjetli şəddə Qarabağ qrupuna aiddir (şək. 12). Daha erkən sənət nümunələri üzərində rast gəlinən dəvə karvanı təsviri, xalça üzərində bədii baxımdan daha mükəmməl və dolğun əks olunmuşdur. İnsanlar, ev heyvanları, suyun simvolu olan – "S" motivi xalça üzərində mütənasib şəkildə yerləşdirilmişdir.

Dövlət Ermitajında Azərbaycan xalçaları kolleksiyasında da maraqlı nümunələr qorunur. Bu kolleksiyada Azərbaycanla yanaşı, türk, türkmən, İran xalıları da mühafizə edilir. Onların əksəriyyəti 100 il öncə alınmışdır. Tayfa nişanı damğa, əjdaha, çinar ağacı, mifoloji quş, həndəsi motivlər bütün türk xalqlarının toxumalarında yayılan motivlərdir. Bəzən bu xalçalar motivlərinə, bəzən isə toxunduqları əraziyə görə adlanır. Şirvan kilimini

11. Xalça."Çələbi". XIX əsr. Qarabağ

12. Şəddə. XIX əsr. Qarabağ



Şək. 12.

bəzəyən konstruktiv formalı "kilimgülü" motivi və Qarabağ vərnisində müstəqil şəkildə təsvir edilən "əjdaha" öz semantik mənaları ilə varislik ənənəsinin daşıyıcılarıdır. Qarabağın "Turaclı" və Bakı qrupunun Qobu kilimləri öz toxunduqları regionların kolorit və naxış sistemini təcəssüm etdirir. Burada da ağac, quş təsvirləri, həndəsi motivlər təkrarlanır.

Dövlət Ermitajının xalça kolleksiyasında qorunan qiymətli xalçalar içərisində maraq doğuran nümunələrdən bəziləri Səfəvilər dövrünə aiddir. Bu xalçaları araşdıran və onların Azərbaycana məxsus olduğu haqda ilk dəfə məlumat verən amerikalı alim Artur Poup olmuşdur. Bu yüksək keyfiyyətli xalçalarda nilufər, spiral formalı "islimi" motivləri ilə yanaşı, qızılgül, zanbaq, nar çiçəyi, süsən təsvirli, bahar təravətli naxışların əks etdirdiyinin şahidi oluruq.

Öz əzəməti, möhtəşəmliyi ilə saray xadimlərinin zövqünü oxşayan, xüsusi sifarişlərlə toxunan nəbati dekorlu, əlvan koloritli Polanez xalıları da seçilən özəl xalçalardır.

## Mənbələr:


1. Народы Кавказа. Государственный Музей Этнографии Народов СССР. Каталог-Указатель Этнографических Коллекций. Ленинград, 1981, 195 с.
2. Kaukasische Volkeren. The Caucasian Peoples. Russian Ethnographic Museum. Belgium, 2000, 327 p.
3. Sadiq bəy Əfşar. Qanun üs-süvər. Bakı: Elm, 1971, 26 s.
4. Parviz Tanavoli. Persian Flatweaves. 1988, 350 p.
5. Rasim Əfəndiyev. Azərbaycan el sənəti. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1971, 77 s.